**UOT 76**

**Sevinc Əliyeva**
**Bakı Xoreoqrafiya Akademiyası**
**müəllim**
**E-mail:eliyevasevinc88@mail.ru**

# TAHİR SALAHOV-ROBERT RAUŞENBERQ: MÜXTƏLİF ÜSLUBLAR, OXŞAR TALELƏR

**Xülasə**: Məqalədə müasir dövrün iki görkəmli rəssamının – Tahir Salahovun və Robert Rauşenberqin yaradıcılığında özünü büruzə verən paralellər işıqlandırılır. Müəllif qeyd edir ki, üslub müxtəlifliyinə baxmayaraq, bu rəssamların yaradıcılığında xeyli sayda ümumi cizgilər tapmaq mümkündür. Onların hər biri təkcə öz ölkəsinin yox, həm də dünyanın böyük sənətkarı hesab edilirdi. Hər ikisi müasir təsviri sənətdə geniş yayılmış və qəbul edilmiş yeniliklərin yaradıcısı kimi dəyərləndirilirdi. Bundan başqa, Salahov və Rauşenberq şəxsən tanış idilər və bir-birinə hörmətlə yanaşırdılar. Onlar həm də yaxın dost idilər, müxtəlif ölkələrdə keçirilən sərgilərdə tez-tez görüşərdilər. İstedadlı portretçi olan Salahov öz dostunun bir neçə portretini yaratmışdır. Onlarda Rauşenberqin xarakterik xüsusiyyətləri, dünyagörüşü, yaradıcılığına xas olan motivlər öz əksini tapmışdır.

**Açar sözlər:** Tahir Salahov, Robert Rauşenberq, sərt üslub, abstrakt ekspressionizm, konseptual sənət, rəngkarlıq.

Tahir Salahov şübhəsiz ki, böyük rəssamdır, həm də mahir portretçidir. Yaradıcılığının böyük bir hissəsi portret janrına aiddir. O, çoxlu sayda, həm də ən müxtəlif insanların portretlərini çəkib. “İstedadın xarakteri baxımından onu böyük keyfiyyətləri olan şəxsiyyət maraqlandırır, o, görkəmli insanların – Qarayev, Əmirov, Sabir, Şostakoviç, Rostropoviç, Rauşenberq, Dali və Gessenin portretlərini çəkir, maraqlı və zərif qadınların, sevdiyi insanların simalarını təsvir edir” [2, s. 43-44].

Salahovun ən maraqlı portretlərindən biri, şübhəsiz ki, məşhur Amerika rəssamı Robert Rauşenberqin portretidir. Biz bir portret dedik. Əslində isə Salahov Rauşenberqin bir neçə portretini yaratmışdır. Maraqlıdır ki, bu portretlərin ikisində azərbaycanlı rəssam amerikalı rəssamı eyni pozada təsvir edib. Bunlar müəyyən qədər bir-birinin “güzgü əksi”dir. Eyni zamanda bu fikir yalnız obrazın özünə aiddir. Ətraf məkan isə dəyişir. Həm də o, Salahovun “sərt üslub”undan Rauşenberqə xas olan abstrakt ekspressionizmdə qədər dəyişir. Maraqlıdır, bəs bilavasitə surətin özü necə görünür? Rauşenberqin portretinin vacib bədii əsərlərdən biri olduğunu nəzərə alıb ona daha ətraflı diqqət yetirək. Əslində əsər kifayət qədər sadə kompozisiya quruluşuna malikdir (ümumiyyətlə, Salahovun əsərlərin-

də mürəkkəb kompozisiyalara rast gəlinmir. Bu da "sərt üslub"u səciyyələndirən başlıca prinsiplərdən biridir). Salahov Rauşenberqi qapı çərçivəsində dayanıb tamaşaçıya baxaraq gülümsəyərkən təsvir edib (şəkil 1). Rauşenberq demək olar ki, bütün boyu təsvir edilib, yalnız ayaqlarının aşağı hissəsi kompozisiyaya "sığışmayıb". Təsvir olunan amerikalı rəssam sol əlini qapıya söykəmiş, qurşağı bərabərində tutduğu sağ əlində stəkan saxlamışdır. Onun əynində iri damaları olan sadə göy köynək, boz-qara şalvar vardır. Rauşenberqin üzündəki səmimi təbəssüm olduqca realist və həyati təsir bağışlayır. Əsərin fonu demək olar ki, tamamilə soyuq ağ-qara tərzdə işlənmişdir. Portretdə əsas isti tonlar yalnız təsvir olunanın üzündə cəmləşib. Əlbəttə, portret haqqında çox danışmaq olar. Çünki bu, məşhur rəssamın işlədiyi məşhur rəssamın portretidir. Eyni zamanda yaxşı işlənmiş əsərdir (zənnimizcə, onun qiymətləndirilməsində sonuncu cəhət daha vacibdir). Lakin biz yuxarıda bir deyil, iki portretin adını çəkdik və onların bir-birinə münasibətdə "güzgü əksi" olduğunu vurğuladır. Zənnimizcə, bu məsələyə diqqət yetirməyə dəyər. Birinci nəzərə çarpan budur ki, "Güzgü əksi" ifadəsi hər halda özünü o qədər də doğrultmur. Çünki bu halda təsvir olunan obyekt əks tərəfə yönəlməli idi. Doğrudur, ikinci portretdə Rauşenberqin başı həqiqətən də sanki əks tərəfə yönəlmişdir. Lakin bu sözləri onun bədəni və duruşu barədə demək olmaz. Hər iki portretdə onun duruşu demək olar ki, tamamilə eynidir. Rauşenberq eyni tərzdə sol əlini yuxarı qaldıraraq söykənmiş, sağ əlində isə stəkan tutmuşdur. Bu baxımdan hər iki əsərdə obrazın zahiri görünüşündə bənzərlik var. Lakin başın dönüşü və üz ifadəsi fərqlidir. İkinci şəkildə (biz onu şərti olaraq "abstrakt ekspressionizm" adlandırırıq) başın istiqaməti, artıq deyildiyi kimi birinci portretlə müqayisədə əks tərəfə yönəlmişdir, həm də üz ifadələri başqadır. Doğrudur, hər iki variantda Rauşenberqin baxışları tamaşaçıya dikilib. Lakin birinci əsərdə baxışlar şən, gülümsər, ikincisində isə sakit, yorğun, hətta bir qədər kədərlidir (şəkil 2). Hər iki portret eyni dövrdə - 1990-cı ildə çəkilib. Lakin əhval-ruhiyyə baxımımdan bu iki əsərin arasında keçilməz uçurum vardır. Deyildiyi kimi, birinci portretdə Rauşenberq həyat və yaradıcılıq eşqi aşıb-daşan durumda, gülümsər görünüşdə təsvir olunur – bu, optimizm nümunəsidir. İkinci əsərdə isə qarşımızda tamam başqa Rauşenberqi - yorğun, əhvalsız, sanki sonun yaxınlaşdığını hiss edən bir insanı görürük – bu isə pessimizm nümunəsidir. Doğrudur, bundan sonra Rauşenberq hələ tam 18 il yaşadı, nisbətən firavan həyat sürdü. Lakin Salahov Rauşenderqin daxilində gəzdirdiyi məşum alın yazısını hələ o zaman sanki duyub hiss etmişdi. Salahov nikbin rəssamdır, əsərlərindəki soyuq, sərt tonlara baxmayaraq nikbindir. Lakin indiki halda Salahov portreti məhz Rauşenberqin öz üslubuna uyğun tərzdə işləmişdir. Biz Rauşenberqi bədbin adlandırmaq fikrindən uzağıq, lakin onun abstrakt ekspressiyası, hətta isti tonlarla işlənmiş olsa belə, özündə gizli bir soyuqluq təcəssüm etdirir. Buradan

isə pessimizmə o qədər də uzaq deyil. Hesab edirik ki, əsərin psixologiyasını qiymətləndirərkən bu cəhətə diqqət yetirmək obyektivlik baxımından özünü hər halda doğruldur.

İkinci portretdə diqqəti cəlb edən əsas məqamlardan biri də əsərin fon həllidir. Birinci portretdə fon həlli tamamilə realist prinsiplərə istinad edir – bu, Salahovun dəst-xəttinin göstəricisidir. Hətta buradakı soyuq boz-qara rəng çalarları da onun yaradıcılıq manerasına xasdır, “sərt üslub”un nişanəsidir. İkincisində isə fon həlli dəyişir – burada açıq-aşkar Rauşenberqin yaradıcılıq üslubuna xas olan xüsusiyyətlər özünü büruzə verməyə başlayır. Məlumdur ki, Rauşenberq gənclik illərində daha çox abstrakt ekspressionizmə, pop-arta, konseptual incəsənətə meylli olmuşdur. Həmçinin onun yaradıcılığında kollaj və redi-meyd də təmsil olunub. Əlbəttə, Salahovun klassik rəngkarlıq texnikası “həcmli” incəsənətdən çox uzaqdır. Məhz buna görə də dostu Rauşenberqin pop-art, yaxud redi-meyd sahəsindəki nailiyyətləri Salahovun bu əsərində əks olunmayıb. Bunun əvəzində “klassik ruhlu” Salahov öz dostunun abstrakt ekspressiyasını sözügedən portretin fonunu işləmək üçün əsas götürmüşdür. Həqiqətən də, ikinci portretin fonundakı kompozisiya Salahovun yox, məhz Rauşenberqin dəst-xəttini xatırladır. Salahov dostluq etdiyi amerikalı rəssamın portretinin fonunu onun öz yaradıcılıq üslubunda əks etdirməyə çalışmışdır.

R.Rauşenberqin T.Salahov tərəfindən yağlı boya ilə işlənmiş üçüncü portreti də maraq doğurur. Burada onun yalnız üzü əks olunmuşdur. Amerikalı rəssam qayğılı, düşüncəli, hətta yorğun görünür. Əvvəlki portretlərlə bu portreti on ildən artıq zaman kəsimi ayırır. Portretdə bu, aydın hiss olunur. Rauşenberqin tamaşaçıya dikilmiş kölgəli nəzərləri sanki qaranlığa qərq olub. Gözlərinin altına isə elə bil qan çilənib. Bütün bunlar portretin psixoloji yükünü artırır (şəkil 3).

Salahov və Rauşenberq dost olublar. Bu dostluq öz milli sərhədlərindən çıxaraq transmilli müstəviyə qədəm qoymuşdu. Səbəb sadədir: hər iki rəssam artıq çoxdan bəridir ki, milli sərhədləri aşıb bir növ dünyanın vətəndaşına çevrilmişlər. Maraqlıdır ki, onların yaradıcılığında da müəyyən cizgilər axtarıb tapmaq mümkündür. Baxmayaraq ki, onlardan biri abstraktsionist, digəri isə realist idi. Biz bu məsələdə triadalar sistemini (istənilən konfiqurasiyada) tətbiq etmək niyyətində deyilik. Sadəcə onu xatırlatmaq istərdik ki, hələ şəxsi tanışlıqdan xeyli əvvəl bu iki rəssam sənət aləmində “qəbul edilmiş qaydalardan kənara çıxan” yaradıcılıq nümunələri nümayiş etdirməklə məşhurlaşmışdılar. Rauşenberqin “normadan kənara çıxması” hətta abstraksionizm üçün ağlasığmaz təsir bağışlayırdı. Zənnimizcə, onun “Çarpayı” (1955) əsərini (bu, onun öz çarpayısı idi) xüsusi təqdim etməyə ehtiyac yoxdur (şəkil 4). Rəssam yatdığı çarpayının üstünə rəngləri qarışdıraraq tökmüş və beləliklə də, özünün dediyi kimi, həcmli rəngkarlığa nail olmuşdu.

Rauşenberq haqqında fikirlər də müxtəlifdir. Həm də təkcə Amerikada yox, Avropada da, Rusiyada da fikirlər fərqlidir. Rauşenberqin həyatdan köçməsi (2008) ilə onun haqqında səslənən mülahizələr azalmayıb.

Rəssam sənət aləmində aktiv ömür sürmüş, bir sahədən digərinə keçmişdir. Lakin böyük hesabla bunların hamısı modern əhval-ruhiyyəli sənət axtarışları idi. Rəssam kütlə içərisində populyarlığa məhz qeyri-adi, ekstravaqant sənət təcrübələri ilə nail olmuşdu. Bunlar həqiqətən də əsl sənət təcrübəsi idilər. Orta əsrlərdə əlkimyaçılar müxtəlif maddələri bir-birinə qatıb yeni maddə əldə etdikləri kimi, Rauşenberq də abstrakt yönümlü sənət sahələrini sintez etməklə yeni, o zamana qədər mövcud olmayan həcmli və həcmsiz bədii formalar yaradırdı.

Salahovun Olimpə qalxması isə fərqli müstəvidə baş verib. Bu iki sənətkar nə qədər yaxın dost olsalar da, sənət aləmində bir-birindən çox fərqli idilər. Dediyimiz kimi, Salahov realistdir. O, başqa cür ola bilməzdi, o zamankı sovet mühiti özü onu buna vadar edirdi. Lakin Salahov hətta belə bir şəraitdə tapdanmış yolla getmədi, realist ənənələrə zahirən sadiq qalmaqla özünə sənətdə fərqli cığır açdı. Bu cığırın uğurlu nümunələri çoxdur. Lakin azərbaycanlı rəssamın yaradıcılığını amerikalı rəssamın yaradıcılığı ilə müqayisə etmək üçün ən uğurlu forma ictimai fikrin daha çox tənqidə məruz qoyduğu əsərlərin müqayisəsidir. Qoy bunlardan biri abstrakt, digəri isə realist olsun. Bu fərq əsərləri yuxarıdakı kontekstdə müqayisə etməyə heç də mane olmur. Əsas odur ki, onlar ilk günlərdən başlayaraq birmənalı qarşılanmayıb və bu gün də onlara münasibət eyni cür deyil. Məhz bu müstəvidə - sosial fikir və rəy müstəvisində ABŞ ilə SSRİ-nin ideoloji qarşıdurmasının, “Soyuq müharibə”nin tüğyan etdiyi bir dövrdə yaradılmış iki tamam fərqli əsəri eyniləşdirmək olar. Bunu əsaslandırdıqdan sonra onları eyni müstəvidə təhlil etmək də olar. Bu iki əsərdən zaman etibarilə daha erkən yaradılanı Rauşenberqin yuxarıda xatırladığımız “Çarpayı” əsəridir. İkinci əsər bundan 5 il sonra – 1960-ci ildə yaradılıb. Bu əsər Salahovun “Bəstəkar Qara Qarayevin portreti” əsəridir. Obrazlı olaraq həmin portret Salahovun “Çarpayı”sıdır. Bəli, əsər realist üslubda çəkilib. Burada hər şey realdır, real olduğu qədər də sadədir. Lakin ruhən yenilikçi olan Salahov bildiyini edib – klassik rəngkarlıq qanunlarına zidd olaraq Qara Qarayevin üzünü qaranlığa, çiyinlərini isə işığa doğru istiqamətləndirib. Elə buna görə də ciddi tənqidlərə məruz qalıb. O zamankı loyal sovet cəmiyyəti belə bir “qanundan kənara çıxmanı” birdən-birə qəbul edə bilməzdi. Əsərə, onun “üsyankar” ruhuna alışmaq üçün müəyyən müddət lazım idi. Elə Şostakoviçin portretindəki “bədbin” əhvali-ruhiyyə də bir müddət qəribə təsir bağışlamışdı [3]. Bu müddət amerikalıların Rauşengerqin “Çarpayı”sına alışmasının müddətindən kiçik deyildi. Əslində hər şey belə də oldu. Nisbətən qısa zaman kəsimində bu “qeyri-düzgün” işlənmiş portret uğurlu işlərdən biri kimi dəyərləndirilməyə başladı. Xatırlayaq ki, Venetsiya biennalesində Rauşenberqin

"Çarpayı"sı Qızıl medala layiq görülmüşdü [5]. Elə Salahovun "Qara Qarayevin portreti" əsəri də ondan geri qalmadı, bəlkə hətta bir qədər də irəli getdi. 1962-ci ildə bu əsərə görə Salahova SSRİ Rəssamlıq Akademiyasının gümüş medalı, 1968-ci ildə Dövlət Mükafatı təqdim olundu [4].

O dövrdə bu iki rəssam bir-birini hələ yaxşı tanımırdı. Onların arasında heç bir münasibət yox idi. Ancaq hər ikisinin cəmiyyətdə qazandığı mövqe, insanların, sənət xadimlərinin onlara olan münasibəti bu iki sənətkarı oxşar mövqedən dəyərləndirməyə imkan verir. Biz Rauşenberqlə Salahovun sənət münasibətlərini təhlil edərkən triadalar sisteminə müraciət etməyəcəyimizi bildirmişdik. Lakin istər-istəməz əksliklərdən doğan daha bir triada ilə rastlaşırıq ki, onu 1) sənət; 2) cəmiyyət; və 3) münasibət kontekstində ifadə etmək olar. Bu nəzərdə tutulmamış triada həm Rauşenberq, həm də Salahov üçün eyni dərəcədə keçərlidir.

Yuxarıda biz göstərmişdik ki, Salahovun Rauşenberqlə tanışlığı və sonralar dostluğu SSRİ-də qərb rəssamlarının sərgilərinin keçirilməsindən başlanır. Həmin dövrdə Salahov Moskvada, SSRİ Rəssamlar İttifaqında nüfuzlu mövqe tuturdu və xarici rəssamların sərgilərinin keçirilməsi bir çox hallarda onun təşəbbüsü ilə baş tuturdu. Bu barədə, o cümlədən Rauşenberqlə dostluğu barədə Salahov özü belə deyir: "O sərgilər SSRİ Rəssamlar İttifaqının rəhbərliyi altında keçirilirdi və bir çox hallarda bu, mənim şəxsi təşəbbüsümlə baş tuturdu. Mən bu sərgiləri 1982-ci ildən hazırlamağa başladım... Bu sərgilər zamanı Robert Rauşenberq ilə yaxından tanış olduq və o, mənim şəxsi dostum oldu. O, məni Berlinə, öz sərgisinə dəvət etdi, mən orada Berlin divarı uçurularkən oldum. Hətta foto da var: divardakı uçuqdan mən Şərqi Berlindən Qərbi Berlinə keçirəm" [6].

Bu iki rəssam həmin illərdən etibarən bir-biri ilə tanış olsa da, görüşmək imkanları çox da geniş deyildi. Doğrudur, Salahov hələ gənclik yaşlarından xaricdə tez-tez olurdu. Bu baxımdan onun bəxti digər rəssamlarla müqayisədə daha çox gətirmişdi. Amma hər halda "dəmir pərdə" vardı və formal surətdə kommunist partiyasının üzvü olan Salahov heç də formal olmadan müəyyən məhdudiyyətlərə riayət etməli idi.

SSRİ-nin çöküşündən sonra vəziyyət dəyişdi. Salahov onsuz da səyahət etməyi, gördüyü maraqlı mənzərələri, təəssürat doğuran simaları kətana, kartona və kağıza köçürməyi sevən rəssamdır. Sosializm sisteminin çöküşündən sonra da təbii ki, Rauşenberqlə dostluğu davam etdi. Sonra o, daha çox səyahət etməyə başladı. Salahov elə rəssamlardandır ki, səyahət ona yaradıcılıq üçün çox şey verir. Son 20 ildə rəssamın yaratdıqlarının böyük bir qismi məhz səyahət təəssüratları əsasında formalaşıb, bu illərdə möhkəmlənib, çünki daha tez-tez əlaqə saxlamağa müvəffəq olmuşdular. Həm Sovet rejimi çökmüşdü, həm də texnika inkişaf etmişdi, internet, mobil telefon və s. meydana çıxmışdı. Bu iki rəssamın dostluğu, 30 ildən çox davam edən münasibətləri Rauşenberqin ölümünədək da-

vam etdi. Yenidən Salahovun sözlərinə diqqət yetirək: "Rauşenberqin ölümündən bir qədər əvvəl qızım Aydan mənə zəng etdi: ata, mən Mayamidəyəm, Robert yanımdadır, o, xəstədir, gücü azdır, amma soruşur ki, sən necəsən" – deyə dəstəyi ona verdi. "Mən ingiliscə o qədər də yaxşı danışmıram, Rauşenberq isə rusca heç danışmır, lakin biz 15 dəqiqə ərzində sınıq-salxaq dillə bir-birimizə səmimi sözlər dedik. O, bilirdi ki, gedəcək, mən ona dedim ki, sən bizim qəlbimizdəsən, o isə dedi ki, heç nə üçün peşman deyil" [6].

Tahir Salahov və Robert Rauşenberq zəmanəmizin görkəmli rəssamları olmuşlar. Artıq onların heç biri həyatda deyil. Lakin əsərləri, sənət görüşləri və dostluqları barədə xatirələr qalmışdır. Bu isə, irəlidə öyrənməli çox şey olduğunu vəd edir.

**Ədəbiyyat siyahısı:**

1. Salamzadə Ə.Ə. Tahir Salahovun yaradıcılığında roman mədəniyyəti ölkələri // T.Salahov-90. Yaradıcılığının əsas mərhələləri (Elmi məqalələr toplusu). Bakı, 2019, s. 17-49.

2. Salahov Tahir . Sərvət (mətnin müəllifi G.Qacar) Bakı, "Şərq-Qərb", 2013, 104 s. s. 43-44

3. Формула успеха. Таир Салахов: Я никогда не искал легких путей (интервью с Г.Микеладзе).

https://1news.az/mobile/news/formula-uspeha-tair-salahov-ya-nikogda-ne-iskal-legkih-putey---foto

4.http://peresvetovgallery.ru/kartiny/kartina-portret-kompozitora-kara-karaeva.html

5. https://helpiks.org/7-56713.html

6. https://www.kommersant.ru/doc/2895442

**Севиндж Алиева**

## ТАИР САЛАХОВ-РОБЕРТ РАУШЕНБЕРГ: РАЗНЫЕ СТИЛИ, СХОЖИЕ СУДЬБЫ

**Резюме:** В статье освещаются параллели в творчестве двух выдающихся художников современности – Таира Салахова и Роберта Раушенберга. Автор отмечает, что несмотря на стилистические различия, в творчестве этих художников можно найти немало общего. Каждый из них считался великим художникомне только своей страны, но и мира. Оба они являлись основателями нововведений,получивших широкое распространение и признание в современном изобразительном искусстве. Помимо этого, Салахов и Раушенберг были лично знакомы, уважали друг друга, дружили и часто

встречались на выставках в разных странах. Будучи искусным портретистом, Салахов создал несколько портретов своего друга, в которых запечатлил характерные особенности и мотивы, свойственные творчеству Роушенберга.

**Ключевые слова:** Таир Салахов, Роберт Раушенберг, абстрактный экспрессионизм, концептуальное искусство, живопись.

**Sevinj Aliyeva**

**TAIR SALAKHOV-ROBERT RAUSCHENBERG: DIFFERENT STYLES, SIMILAR FATES**

**Summary:** The article highlights the parallels found in the work of two outstanding artists of our time - Tair Salakhov and Robert Rauschenberg. The author notes that in spite of the stylistic diversity, a lot of similarities can be found in the works of these artists. Each of them was considered not only one of the famous artists of their country, but also a leading master with a worldwide reputation. Both of them were considered the founders of new beginnings, which were widespread and recognized in modern visual arts. In addition to all this, Salakhov and Rauschenberg were personally acquainted and respected each other. Moreover, they were also close friends, they often met at exhibitions held in different countries. A skilled portrait painter, Salakhov created several portraits of his friend. They capture the characteristic features of Rauschenberg, his worldview, motives inherent in his work.

**Key words:** Tair Salakhov, Robert Rauschenberg, austere style, abstract expressionism, conceptual art, painting.



**1. T.Salahov. Robert Rauşenberq. Kağız, quaş. 1990. (Birinci variant)**



**2. T.Salahov. Robert Rauşenberq. Kağız, quaş. 1990. (İkinci variant)**



**3. T.Salahov. Robert Rauşenberq. Kətan, yağlı boya. 2004.**



**4. R.Rauşenberq. “Çarpayı”. Artefakt, qarışıq texnika. 1955.**

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15. 11. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**